Üzeyir Hacıbəyli – 140

# Milli musiqimizin atası

## *Xalqın ruhunu sənətdə əbədiləşdirmiş bəstəkar*



**Musiqi insanların yaxın dostu, ürək sirdaşıdır. Bütün ömrünü bu sənətə həsr edən, bənzərsiz əsərlər yaradan görkəmli şəxsiyyətləri xatırlayanda, ilk növbədə, Üzeyir Hacıbəylinin işıqlı obrazı gözlərimiz önündə canlanır. Azərbaycan professional bəstəkarlıq məktəbinin yaradıcısı və klassik musiqi sənətinin banisi, bir sözlə, özündən sonra gələn nəsillərə örnək olan Üzeyir bəy belə korifeylərdəndir.**

Bu il dahi bəstəkarın 140 yaşı tamam olur. Bununla əlaqədar olaraq, Prezident İlham Əliyev 3 fevral 2025-ci il tarixli sərəncam imzalayıb. Sənədin preambula hissəsində qeyd olunur ki, Üzeyir Hacıbəyli çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş qüdrətli şəxsiyyətlərdəndir. Ömrünü cəmiyyətin mədəni tərəqqisinə həsr edən fədakar ziyalının yüksək mənəvi-estetik dəyərə malik irsi Azərbaycan xalqının XX əsrin ilk onilliklərindən vüsət almış ədəbi-mədəni intibahının aynasıdır.

Azərbaycan bəstəkarlıq məktəbinin banisi olan Üzeyir Hacıbəyli novator sənətkar kimi milli musiqi xəzinəsini unikal forma və janrlarla zənginləşdirmişdir. O, Şərqin və Qərbin musiqi nailiyyətlərinin dərin vəhdətində dünya musiqisinin qızıl fondunda fəxri yer tutan nadir sənət inciləri meydana gətirmiş, Azərbaycan mədəniyyətinə beynəlxalq miqyasda geniş şöhrət qazandırmışdır. Üzeyir Hacıbəyli, eyni zamanda, parlaq bədii dühası sayəsində Azərbaycan dramaturgiyasına dəyərli töhfələr vermiş, alovlu publisistikası ilə mətbuat salnaməsinə yeni səhifələr yazmışdır. Onun azərbaycançılıq məfkurəsi ilə yoğrulmuş dolğun ictimai-siyasi fəaliyyəti əsl vətənpərvərlik nümunəsidir.

Yubileylə bağlı müxtəlif maraqlı tədbirlər keçiriləcək, elmi araşdırmalar aparılacaq. Əslində, hər il böyük bəstəkarın ad günü sentyabrın 18-də musiqi bayramı ilə əlamətdar olur və bunun da təşəbbüskarı unudulmaz Maestro Niyazi Hacıbəylidir. Görkəmli dirijor doğma əmisi Üzeyir bəyin vəfatından sonra hər il bu günü qeyd edirdi. Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) önündə minlərlə insan toplaşırdı. Burada ölməz sənətkarın adını daşıyan Azərbaycan Dövlət Simfonik Orkestri Niyazinin rəhbərliyində bəstəkarın əsərlərini ifa edirdi. Bu gün ənənə daha dolğun şəkildə davam etdirilir.

Azərbaycanda Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə dahi bəstəkarın xatirəsinə Beynəlxalq Musiqi Festivalı keçirilir. Həmin bayrama yaxın və uzaq ölkələrdən gələn əcnəbi sənətçilər də qatılırlar. Konsertlərlə yanaşı, Üzeyir bəyin əsərləri əsasında teatr tamaşaları göstərilir, onun yaradıcılıq irsini araşdıran elmi konfranslar təşkil olunur. İldən-ilə mötəbər festivalda iştirak edən ölkələrin də, musiqi kollektivlərinin də sayı artır.

**Dirijor, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Telman Qəniyev bizimlə söhbətində bildirdi:**

– Üzeyir bəyin irsi o qədər zəngindir ki, bu "dərya"ya baş vuran hər kəs yeni mənalar əxz edir, dürlü bilgilər qazanır. Onun yaratdığı məktəb Azərbaycan bəstəkarlarının yetişməsinə, püxtələşməsinə mühüm xidmət göstərib. Bu məktəbin çoxsaylı layiqli davamçısı olub. Onlar Üzeyir bəydən sonra Azərbaycan bəstəkarlıq məktəbini daha da zənginləşdiriblər.

Ü.Hacıbəyli elmi yaradıcılığında mərkəzi yeri 20 il ərzində ərsəyə gətirdiyi "Azərbaycan xalq musiqisinin əsasları" kitabı tutur. Bu əsəri ilə o, XX əsrdə Azərbaycan musiqisi nəzəri elminin təməlini qoyub. Dahi bəstəkar uzunmüddətli araşdırmalar nəticəsində Azərbaycan ladlarını əsas və əlavə ladlara ayıraraq sistemləşdirib.

Üzeyir Hacıbəyli öz məqalələrində dəfələrlə xalq mahnılarının əhəmiyyətini, onların toplanmasının, nota yazılmasının vacibliyini göstərib. O, "Azərbaycanda musiqi tərəqqisi" məqaləsində yazırdı: "El mahnılarımız bizim musiqi sərvətimiz və musiqi mənbəyimizdir. Fəqət biz hələ bu sərvət və mənbədən layiqincə istifadə edə bilməmişik". Daha sonra qeyd edir: "Bu mahnılar ağızdan-ağıza düşüb şəhərləri, kəndləri gəzib dolaşır, sonra... tamamilə unudulub itir... Bu nəhvilə yüzlərcə qiymətli el mahnılarımız itib-batmışdır. Bununla belə hal-hazırda mövcud olan və yadlarda qalan el mahnılarımızı yığıb cəmləsək, yenə də yüzlərcə havalarımızı unudulmaq təhlikəsindən xilas edə bilərik"

Məlum olduğu kimi, xalq mahnılarından ibarət ilk məcmuə Üzeyir Hacıbəyli ilə Müslüm Maqomayev tərəfindən nota yazılmış və işlənilmiş "Azərbaycan türk el nəğmələri" (1927-ci il) adlı toplu olub. Bu məcmuədə 33 mahnı toplanmışdı və onların əksəriyyəti görkəmli xanəndə Cabbar Qaryağdıoğlunun ifasından, bir neçə nümunə isə Zülfüqar Hacıbəyovun qeydləri əsasında notlaşdırılıb. Məcmuədə ilk dəfə olaraq, xalq musiqisinin müxtəlif janrlarına aid nümunələr – laylay, əmək mahnıları, uşaq mahnıları, lirik mahnılar, məişət və mərasim mahnıları əhatə olunub. Azərbaycanda etnomusiqişünaslığının inkişafına təkan verən bu nəşri sonrakı illərdə Azərbaycan bəstəkar və musiqişünasları davam etdirib.

Xalqının maddi və mənəvi sərvətlərindən biri olan muğamlarımız şifahi professional musiqinin əsas janrlarından biridir. Muğam nəinki Azərbaycan xalqının, həmçinin digər xalqların da zövqünü oxşayan fəlsəfi məzmunlu füsunkar bir musiqidir. Ü.Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" adlı elmi əsərinin tədqiqat materialı məhz xalq musiqimiz, muğamlarımız olub.

***– Üzeyir Hacıbəyovun parlamasında Qori Müəllimlər Seminariyasının böyük rolu danılmazdır...***

– Bəli. Seminariyada təhsil aldığı illərində o, qabaqcıl dünya mədəniyyəti ilə yaxından tanış olub, klassik musiqi əsərlərini mənimsəyib, skripka və bariton musiqi alətlərində çalmağı öyrənib, xalq mahnı nümunələrini nota köçürüb. Ü.Hacıbəyovun Qori Seminariyasında tələbə yoldaşları Nüslüm Maqomayev, Əli Terequlov və başqaları sonradan onunla çiyin-çiyinə xalqın maariflənməsi uğrunda mübarizə aparıblar. Məhz orada qoyulan möhkəm bilik, fəhm təməli üzərində mədəniyyətimizin tətəqqisi yolunda misilsiz addımlar atılıb.

***– Və bu işıq ömrü boyu Üzeyir bəyi müşayiət edib, yolunu nurlandırıb, eləmi?***



– Bəli. Seminariyanı bitirdikdən sonra Üzeyir Hacıbəyov 1 il Hadrud kəndində (Cəbrayıl bölgəsi) müəllimlik edib və 1905-ci ildə Bakıya köçüb. XX əsrin əvvəllərində neft sənayesinin inkişafı sayəsində Bakıda teatr və konsert həyatı, təhsil, mətbuat yüksəlməyə başlayıb. Ü.Hacıbəyov Bakıda çoxcəhətli fəaliyyət göstərib. Yaxın dostları, məsləkdaşları ilə xalqına xidmət etmək, mədəniyyət və musiqimizi yüksəltmək üçün əlindən gələni əsirgəməyib. Ü.Hacıbəyov xalqda musiqili səhnə əsərlərinə maraq oyatmaq məqsədilə ilk milli operanı (Azərbaycan dilində) yaradıb. 1908-ci il yanvarın 25-də onun "Leyli və Məcnun" operasının Bakıda Z.Tağıyev teatrında ilk tamaşası olub. Operanın librettosunu M.Füzulinin eyniadlı poeması əsasında o özü yazıb. Əsərin musiqisi əsasən muğam və təsniflər üzərində qurulub. Dahiyanə opera bu gün də Azərbaycan opera və balet teatrının səhnəsində yaşayır.

Üzeyir bəy 1909–1915-ci illərdə bir-birinin ardınca "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşid Banu", "Əsli və Kərəm", "Harun və Leyla" operalarını, eləcə də "O olmasın, bu olsun", "Arşın mal alan", "Ər və arvad" operettalarını yaradıb. Məqalələri isə günümüzlə həmahəng səsləşərək, Ü.Hacıbəyovu uzaqgörən siyasətçi, ideyalı publisist kimi qabiliyyətini nümayiş etdirir. Onun yaratdığı "Milli marş", "Çırpınırdı Qara dəniz" bu gün bütün türk dünyasının himninə çevrilib. "Azərbaycan marşı" isə 1992-ci ildə Azərbaycan Respublikasının dövlət himni kimi qəbul olunub.

...Bəli, inamla demək olar ki, 140 yaşlı Üzeyir Hacıbəylinin xatirəsinin böyük ehtiramla yad olunması, həm də musiqi mədəniyyətimizin dünyada təbliği sahəsində görülən işlərin, musiqi sənətimizin inkişafının parlaq təcəssümüdür.

*Əli NƏCƏFXANLI*
*XQ*